Səməd VURĞUN

# Bahar
*(ixtisarla)*

*Bahar, istəklimsən başdan-binadan,*
*Ən gözəl qızısan sən təbiətin.*
*Xoşbəxt yaranmısan xoşbəxt anadan,*
*Gözünün odusan şeirin, sənətin,*
*Ən gözəl qızısan sən təbiətin.*

*Mənim də şair tək qanım qaynardır,*
*Yerdə arzularım gül açır rəng-rəng.*
*Başımda daima fikirlər vardır,*
*Daima döyünür sinəmdə ürək,*
*Yerdə arzularım gül açır rəng-rəng.*

*Bahar, qoy suların gurhagur axsın,*
*Sinəmin üstündən keçsin sellərin.*
*Başımın üstündə şimşək də çaxsın,*
*Qoy tufan qoparsın əsən yellərin.*

*Dən olub səpilək gəl səninlə mən,*
*Göyərək torpaqda sünbüllər kimi.*
*Qızlar gülab çəksin qoy ətrimizdən,*
*Baharın zinəti al güllər kimi.*



*Qoşa çinar olub bitək yol üstə,*
*Göylərə boy ataq öz ölkəmizdə.*
*Yayın istisində Muğanda, Mildə,*
*Yolçular dincəlsin qoy kölgəmizdə.*

*Min il ömür sürək səninlə qoşa,*
*Bir canda döyünən iki ürək tək.*
*Min il nəfəs verək torpağa, daşa,*
*Nəsildən-nəsilə təzələşərək.*

**P.S. Qeyd edək ki, dahi şairimiz Səməd Vurğunun özü də Novruz bayramı günlərində – martın 21-də anadan olub.**